Azərbaycan Respublikası vergilər nazirinin
01 may 2019-cu il tarixli 1917040100401200
nömrəli əmri ilə təsdiq edilmişdir

# Vergi ombudsmanı haqqında

# Ə S A S N A M Ə

## 1. Ümumi müddəalar

1.1. Vergi ombudsmanı (bundan sonra - Ombudsman) vergilər nazirinin əmri ilə təyin edilən, bilavasitə nazirə tabe olan, ona hesabat verən və ictimai əsaslarla fəaliyyət göstərən şəxsdir.

1.2. Ombudsman öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Vergi Məcəlləsini, Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"ni, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Vergilər Nazirliyinin qərarlarını, əmrlərini, sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

## 2. Ombudsmanın əsas fəaliyyət istiqaməti

Ombudsmanın əsas fəaliyyət istiqaməti vergi ödəyicilərinin hüquqlarının pozulmasının qarşısının alınması və pozulmuş hüquqların bərpasıdır.

## 3. Ombudsmanın vəzifələri

3.0. Ombudsman bu Əsasnamənin 2-ci hissəsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. Vergi ödəyicilərinin hüquqlarının pozulmasının qarşısını almaq və pozulmuş hüquqların bərpasını təmin etmək;

3.0.2. Vergi ödəyicilərinin müraciətlərini təhlil etmək və daha əlverişli biznes mühitinin yaradılması istiqamətində vergilər nazirinə təkliflər vermək;

3.0.3. Vergi ödəyiciləri, qanunvericiliyə uyğun olaraq yaradılmış vergi ödəyicilərinin birlikləri ilə görüşlər təşkil etmək, onların müraciətlərinə baxmaq;

3.0.4. Vergi ödəyicilərinin hüquqlarının qorunması məqsədilə dövlət vergi orqanlarının fəaliyyətini təhlil etmək və fəaliyyətin daha səmərəli təşkili baxımından təkliflər hazırlamaq;

3.0.5. Dövlət vergi orqanlarında vergi ödəyicilərinin müraciətlərinə, xüsusilə də vergi ödəyicilərinin şikayətlərinə baxılmasının keyfiyyətinə nəzarət etmək və keyfiyyətin artırılması istiqamətdə vergilər nazirinə təkliflər vermək;

3.0.6. Vergi ödəyicilərinin hüquqlarının aşkar formada pozulduğu məlum olan müraciətlərin baxılmasını nəzarətə götürmək;

3.0.7. Vergilər Nazirliyinin Apellyasiya Şurasının iclaslarında iştirak etmək və çıxarılmış qərarla razı olmadığı halda vergilər nazirinə xüsusi rəy vermək;

3.0.8. Vergilər nazirinin verdiyi tapşırıq və göstərişlərin vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

3.0.9. Ombudsmanın fəaliyyəti ilə əlaqədar Vergilər Nazirliyinin Kollegiyasında müzakirə edilməli məsələləri müəyyən etmək və bu barədə təkliflərini vergilər nazirinə təqdim etmək;

3.0.10. Bu Əsasnamənin 1.2-ci bəndində göstərilən normativ hüquqi aktların vaxtında və lazımi səviyyədə icrasını təmin etmək;

3.0.11. Ombudsmanın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində vergilər nazirinə təkliflər vermək;

3.0.12. Vergilər Nazirliyinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

3.0.13. Fəaliyyətinin nəticələri üzrə vergilər nazirinə dövri arayışlar (hesabatlar) təqdim etmək;

3.0.14. Öz səlahiyyətləri daxilində vergi ödəyicilərinin hüquqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.0.15. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi, bank sirrinin, habelə xidməti məlumatların qorunmasını təmin etmək;

3.0.16. Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. Ombudsmanın hüquqları

4.0. Ombudsman vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. Vergi orqanlarına vergi ödəyicilərindən daxil olan bütün müraciətlərə və sənədlərə baxılmasında iştirak etmək;

4.0.2. Vergi ödəyicilərinin hüquqlarının qorunması məqsədilə vergi orqanları tərəfindən həyata keçirilən vergi nəzarəti tədbirlərində iştirak edərək müşahidələr aparmaq;

4.0.3. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin icrası ilə əlaqədar vergi orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək, onlardan belə məlumatları (sənədləri) almaq, habelə zərurət yarandığı hallarda vergi orqanlarının vəzifəli şəxslərini, habelə digər əlaqəli şəxsləri araşdırmaya dəvət etmək, onlardan izahatlar (arayış, rəy) almaq;

4.0.4. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin icrası ilə əlaqədar vergi orqanları tərəfindən yol verilmiş nöqsanların aradan qaldırılması üçün onlara tövsiyələr vermək, vergi orqanları tərəfindən nöqsan aradan qaldırılmadıqda bu barədə müvafiq vergi orqanının kurasiya üzrə nazir müavininə (və ya birinci müavininə), zərurət yarandığı hallarda isə vergilər nazirinə məlumat vermək;

4.0.5. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin icrası ilə əlaqədar “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə uyğun olaraq həyata keçirilən əməliyyat-axtarış, təhqiqat və istintaq tədbirləri istisna olmaqla vergi orqanlarında mövcud olan bütün məlumatları və hesabatları operativ formada əldə etmək;

4.0.6. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin icrası ilə əlaqədar daxili sənədləri, eyni zamanda xaric olan sənədləri imzalamaq;

4.0.7. Səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə vergi orqanlarına tövsiyələr vermək;

4.0.8. İqtisadi-hüquqi, ictimai-mədəni, digər dövlət və qeyri-dövlət qurumlarının, habelə kütləvi informasiya vasitələrinin təşkil etdiyi tədbirlərdə iştirak etmək;

4.0.9. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

4.0.10. Fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq və tədqiqatlar aparmaq;

4.0.11. Fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı vergilər nazirinə təkliflər vermək;

4.0.12. Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Ombudsmanın məsuliyyəti

Ombudsman Azərbaycan Respublikasının qanunvericiliyinin və Vergilər Nazirliyinin normativ sənədlərinin tələblərinin pozulmasına görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

* * *